# Nəriman Nərimanovun ədəbi irsinin tədqiqatçısı

**Məlum olduğu kimi Azərbaycan Respublikasının Prezidenti cənab İ.H. Əliyev görkəmli yazıçı və dövlət xadimi Nəriman Nərimanovun 150 illik yubileyinin keçirilməsi haqqında 14 fevral 2020-ci il tarixli sərəncam vermişdir. Bu münasibətlə tədbirlər planına əsasən, Teymur Əhmədov Nəriman Nərimanovun iki cilddə Seçilmiş əsərlərini və yeddi dildə elmi-tərcümeyi halını - kitabça kimi nəşr etdirmişdir. Onun ”Nəriman Nərimanov: həyatı, mühiti, ədəbi-bədii yaradıcılığı” monoqrafiyası isə Ədəbiyyat İnstitutu tərəfindən Azərbaycan Respublikasının Dövlət mükafatına təqdim olunmuşdur (2020).**

Professor Teymur Əhmədovun ”Nəriman Nərimanovun yaradıcılıq yolu” mövzusunda doktorluq dissertasiyasının rəsmi opponentləri akademiklər Məmməd Cəfər Cəfərov, Kamal Talıbzadə və Firudin Köçərli olub. Akademik K.Talıbzadə ”Xalqın böyük oğlu” adlı ön söz məqaləsində göstərib ki, professor Teymur Əhmədov bütün həyatını, zəkasını konkret bir ədəbi şəxsiyyətin- klassik yazıçı və böyük ictimai xadim, dramaturq və publisist Nəriman Nərimanovun yaradıcılığı və şəxsiyyətinin tədqiqinə həsr edib. Kitabın uğurunu da alimin öz şəxsiyyətinə sədaqəti, tədqiqatçı əxlaqının sabitliyi ilə fasiləsiz axtarışları və elmi yaradıcılığı arasındakı uyğunluq təmin edib: ”T.Əhmədovun alim ədasında tarixi-fəlsəfi düşüncə tərzi publisistik kəsərlə, beynəlmiləlçiliyi isə tənqidçi fəallığı ilə birləşib”.

### *Alim bütün ömrü boyu*

**demək olar ki, Nəriman Nərimanovun həyatı, mühiti və sənətinin tədqiqi və təbliği ilə məşğul olub. Professor T.Əhmədov ”N.Nərimanovu təkcə arxiv sənədlərində və xatirələrdə, kitablarda axtarmaqla kifayətlənməyib, bu parlaq, lakin tragik şəxsiyyətə müxtəlif zamanların müstəvisindən nəzər salmağa nail olub”. Tədqiqatçı ”mürəkkəb yaradıcılıq bioqrafiyası, parlaq şəxsiyyəti, misilsiz ədəbi və ictimai-tarixi xidmətləri olan N.Nərimanov haqqında həqiqətlərlə bərabər, öz alim şəxsiyyətini də sabitləşdirməyə nail olub.”**

Məqalə müəllifi tədqiqatın elmi yeniliyini bununla izah edib ki, alim Nəriman Nərimanovun tarixi simasını, onun şəxsiyyəti və ədəbi-tarixi mövqeyini səciyyələndirən ictimai-siyasi şüuru bədii təfəkkürün vəhdətində ön plana keçirib. Akademikin daha bir elmi yeniliyi milli dövlət xadiminin formalaşmasında bədii yaradıcılığın rolu ilə bağlı olub ki, bu problem də tədqiqatda ardıcıl surətdə izlənilib. Opponentin fikirlərindən: **”Zənnimcə, məsələnin belə qoyuluşu Şərq, o cümlədən Azərbaycan ədəbiyyatının bir sıra ədəbi şəxsiyyətlərini öyrənmək üçün ciddi perspektivə malikdir. Bizcə bu üsuldan Ş.İ.Xətai, M.P.Vaqif, M.F.Axundov və bu kimi dövlət xadimi və sənətkarları öz şəxsiyyətində birləşdirən klassiklərin tədqiqində də istifadə etmək səmərəli olar. N.Nərimanovun tədqiqi bir də ona görə əhəmiyyətlidir ki, o, müasir Şərq hadisələrini başa düşməyə, Azərbaycanın tarixi mövqeyi haqqında düşünməyə kömək edə bilər”.**

Akademik K.Talıbzadə Teymur müəllimin mətnşünaslıq və mənbəşünaslıq işinin keyfiyyət səviyyəsindən də danışıb. Bildirib ki, alim dövrün qiymətləndirməsinə görə burjua mətbuatı, demokratik və marksist mətbuatından götürülən faktlara obyektiv vicdan və səmimiyyətlə yanaşıb. ”Bunun sayəsində də N.Nərimanovun tarixi şəxsiyyət, inqilabçı, filosof və ictimai xadim, böyük sənətkar kimi maarifçilikdən inqilabi demokratizmə, oradan da marksizm-leninizmə doğru inkişafının həm dünyagörüşü, həm də ədəbi-bədii aspektdə inkişafı tarixən doğru izah olunub”. Habelə, əsərdə dövlət xadiminin xalqla, torpaqla, milli təfəkkürlə, dinə münasibətlə bağlılığı da məntiqi surətdə izah və şərhini tapıb.

### *Professor Teymur Əhmədov*

Nəriman Nərimanovun həyat və yaradıcılığını tədqiq etmək üçün akademik Mirzə İbrahimov dediyi kimi, ”Nərimanov haqqında çap olunmuş elmi-publisist yazılarda xeyli arxiv sənədlərindən istifadə edib, xüsusən, əsrimizin əvvəllərindən Nərimanovun vəfatına qədər çıxmış çoxlu qəzetlər, jurnallar, xatirə və rəyləri elmi işinə cəlb olunub.

”Nəriman Nərimanov (həyatı, mühiti və ədəbi-bədii yaradıcılığı)” adlı monoqrafiyanın (Bakı,”Nurlar” NPM, 2019, 552 səh.) elmi redaktoru akademik Mirzə İbrahimov, ön söz müəllifləri akademiklər Cəmil Quliyev və Kamal Talıbzadə olub. Hər üç müəllif professor Teymur Əhmədovun şəxsiyyəti və elmi tədqiqatları haqqında məqalə yazıb, qiymətli fikirlər söyləyib. ”Monoqrafiyada görkəmli dövlət xadimi, yazıçı və publisist Nəriman Nərimanovun Azərbaycan maarifçi-realist ədəbiyyatın və milli teatrın yaranması və inkişafında xidmətləri, eləcə də aktyorların sənət məktəbi olan səhnə əsərlərinin Zaqafqaziyada, Krımda, Tatarıstanda və Orta Asiyada tamaşaya qoyulması ilk dəfə tarixi sənədlər,




arxiv materialları əsasında araşdırılmışdır. Bu tədqiqat əsəri Nəriman Nərimanovun elmi tərcümeyi-halının yaradılması istiqamətində uğurlu addımdır.”

**”Nəriman Nərimanov” monoqrafiyası müəllifin ”Bir neçə söz” adlı müqəddiməsi ilə açılıb. Professor Teymur Əhmədovun fədakarlığını, elmi uğurlarının mühüm nəticələrini, 6 fəsildən ibarət monoqrafiyanın elmi-nəzəri və ədəbi-estetik əsaslarını, Nəriman Nərimanov irsinin bütün yönlərini özündə ehtiva edib.**

### *Birinci fəsil*

”Nəriman Nərimanovun bədii yaradıcılığının tədqiqi tarixi” adlanıb. Müəllif aydınlaşdırıb ki, Nəriman Nərimanovun bədii irsinin tədqiqi tarixi XIX əsrin sonlarına aid olub, ilk təşəbbüs görkəmli ədəbiyyatşünas Firidun bəy Köçərlinin adı ilə bağlıdır. O, ”Azərbaycan komediyaları” (1895) və ”Azərbaycan ədəbiyyatı” (1903) əsərlərində Nəriman Nərimanovdan bəhs edib, haqqında rus mətbuatında yazıb.

”Nəriman Nərimanovun həyatı, mühiti, ictimai-siyasi fəaliyyəti” adlı ikinci fəsildə N.Nərimanovun həyatı və fəaliyyəti 1870-1918-ci illər boyunca araşdırılıb. Arxiv sənədləri, mətbuat qaynaqları ilə zəngin əlaqələr professor Teymur Əhmədovun böyük zəhmətkeşliyi və elmi vicdanının səviyyə göstəriciləri kimi dəyərləndirilməlidir. Tədqiqatçı faktların düzgünlüyü, etibarlığına əsaslanaraq Nəriman Nərimanovu yüksək elmi-nəzəri və ədəbi-estetik səviyyədə təqdim edib. Bu fəsildə ”Novoye obozreniye”, ”Kaspi”, ”Tərcüman”, ”Perevodçik”, ”İrşad”, ”Vışka”, ”Tərbiyyət”, ”Həblülmətin”, ”İzvestiya”, ”Proletarskaya revolyusiya” kimi mətbuat orqanları, arxivlər və kitablar böyük şəxsiyyətin keçdiyi yolun tarixi-siyasi əhəmiyyətini daha aydın əks etdirib.

Nərimanovşünas-alim ədibin dramaturji fəaliyyətini maarifçi-realist ədəbiyyat tarixində yeni mərhələ hesab edib. ”Maarifçi realist ədəbiyyat tarixində yeni mərhələ” adlı üçüncü fəslin ”Nəriman Nərimanovun dramaturgiyası” bölümündə dramaturqun ”Nadanlıq”, ”Dilin bəlası, yaxud Şamdan bəy” komediyaları, ”Bahadır və Sona” faciəsi, onun avtoqrafının ilk və son nüsxəsi arasındakı fərqlər, Azərbaycan ədəbiyyatında ilk tarixi faciə olan ”Nadir şah”ın ilk nəşrləri arasındakı nüsxə fərqləri, habelə, həmin əsərlərin mövzu və sənətkarlığını elmi-ədəbi mühitə dəqiqliklə çatdırıb. Bu baxımdan ”Nadanlıq”, ”Dilin bəlası”, ”Bahadır və Sona”, ”Nadir şah” pyesləri hərtərəfli təhlil-tədqiqat predmeti edilib. Biz tədqiqat boyu mənbələr, qaynaqlar, problemin öyrənilməsinin ədəbi-tarixi şəraiti, mövzunu yetirən sosial-mədəni mühit, bədii əsərlərin ideya-məzmunu və məfkurə istiqaməti, onların sosial-tərbiyəvi əhəmiyyəti və haqqında yazılmış tədqiqat işlərinin səviyyəsi ilə yaxından tanış oluruq. Professor Teymur Əhmədov ədəbi-nəzəri təhlillərini bütün səviyyələrdə elmi tədqiqat mənbələri, qaynaqları əsasında aparıb, hər bir əsərin təhlilləri ilə bağlı əldə etdiyi elmi müddəaları, mühüm elmi nəticələri göstərib. Alimin istifadə etdiyi elmi qaynaqlar mötəbərdir, Bakı, Tiflis, Kazan, Peterburq, Həştərxan və başqa məkanlardakı arxiv sənədləri və mətbuatına istinad edib. Teymur müəllim vicdanlı alim səriştəsi ilə Nəriman Nərimanov dramaturgiyasının yerini, ədəbi-tarixi əhəmiyyətini-hər şeyi dürüst göstərib. Tədqiqatçının əldə etdiyi mühüm elmi nəticələr gələcək tədqiqatlar üçün zəmin hazırlayıb, problem-mövzular müəyyənləşdirib.

**Professor Teymur Əhmədov üçüncü fəslin”Nəriman Nərimanovun nəsr əsərləri” adlı bölümündə ”Bahadır və Sona”nı ictimai roman kimi səciyyələndirib. ”Pir”, ”Bir kəndin sərgüzəşti” əsərlərini maarifçi realist nəsr nümunələri kimi təhlillərə cəlb edib, onların fanatizm və nadanlığı tənqid xüsusiyyətlərini göstərib.**

### *Ədəbiyyatşünas-alim tədqiqatlarında*

nə qədər öz fərdiyyəti ilə olubsa, bir o qədər də mənbəlidir; arxivlər, sənədlər, mətbuat yazıları və ədəbi-tənqidi araşdırmalar köməyinə gəlib. Elmi-nəzəri fikir tarixinə diqqət yetirmək professor Teymur Əhmədov tədqiqatlarının vacib şərtidir. Təsadüfi deyil ki, o, XIX-XX əsrlərə aid qiymətli portret-oçerklərin müəllifi olub, hər bir ədəbi şəxsiyyəti onun mənsub olduğu mühit və müasirləri ilə birlikdə, əhatəli mənbə və qaynaqlar əsasında təqdim edib. Teymur müəllim 10 cildlik ”Azərbaycan ədəbiyyatı tarixi”nin V cildi üçün ”Nəriman Nərimanov” oçerkinin də müəllifidir.

**Nəriman Nərimanov teatr mədəniyyətinin görkəmli nümayəndəsidir. Onun milli teatrın inkişafında tarixi xidmətləri olub. Professor Teymur Əhmədov monoqrafiyada Nəriman Nərimanov və teatr mövzusuna geniş yer ayırıb.**

Bu baxımdan ”Nəriman Nərimanov və teatr mədəniyyəti” adlı dördüncü fəsil geniş və əhatəlidir. Həmin fəsildə müəllif milli teatrın inkişaf mərhələlərini aydınlaşdırıb, bu sahədə Nəriman Nərimanovun tarixi xidmətlərinə xüsusi yer verib. Görkəmli ədib xalqın gözünü açmaq üçün teatra məbəd kimi baxıb, ilk truppaların (Həbib bəy Mahmudbəyov, Nəcəfqulu Vəliyev, Soltanməcid Qənizadə, Həsən bəy Zərdabinin truppaları) işini qiymətləndirib, özü tamaşalarda oynayıb, pyeslərini səhnəyə çıxarıb, teatrın tarixindən, şəxsiyyətlərindən yazıb, Azərbaycan və rus yazıçılarının səhnə əsərlərinə dəyər verib. Nəriman Nərimanov ”Tənqid və təbliğ” teatrı, Tiflis ədəbi mühiti, Tiflis-Azərbaycan teatrı ilə yaxından əlaqə saxlayıb, Hüseynqulu Sarabski və Cahangir Zeynalovla görüşüb. Teymur müəllim Abbas Mirzə Şərifzadə, Sidqi Ruhulla, Mustafa Mərdanov, Möhsün Sənani və Nəriman Nərimanov dramaturgiyası, habelə, Nəriman Nərimanov və tatar məsələsinə geniş yer verib.

Monoqrafiyanın ”N.Nərimanovun ədəbi-nəzəri görüşləri” adlı beşinci fəslində inqilab və mədəniyyət xadiminin ədəbiyyat, publisistika, mətbuat və teatr haqqında görüşlərinin əsasları ümumiləşdirilib, demokratik-maarifçi tənqid, inqilabi publisistika, qabaqcıl dünya ədəbiyyatı, klassik irs, realizm və xəlqilik məsələləri orijinal elmi-nəzəri, ədəbi-estetik zəmində təhlil predmeti olub.

Monoqrafiyada Nəriman Nərimanovun publisistikasına geniş yer ayrılıb. Professor Teymur Əhmədov ”Nəriman Nərimanovun publisistikası: maarifçilikdən inqilabi demokratizmə doğru”adlı altıncı fəsildə ədibin bədii-siyasi publisistikasının əsasında maarifçi fikir və düşüncənin, inqilabi-demokratik məfkurənin dayandığını şərh edib. Peşəkar jurnalist Nəriman Nərimanov publisistikasının təşəkkül və təkamülünü izləyib, mövzu və ideyalarının əsaslı analizləri ilə məşğul olub, siyasi publisistin ”Həyat”, ”İnqilab və mədəniyyət”, ”Bürhani-tərəqqi”, ”Prikaspiyski kray”, ”İqbal”, ”Astraxanski kray”, ”Bəsirət”, ”Açıq söz”, ”Yeni iqbal”, ”Hümmət”, ”Proletari”, ”Kaspi”, ”Füqəra füyuzatı” və başqa mətbuat orqanları ilə əməkdaşlığını, yazışmalarını, birlik, ana dili, millət, vətən, inqilab və azadlıq ideyalarını, habelə, İran, Türkiyə və Rusiya məsələsini xüsusilə diqqətdə saxlayıb, dövrün romantik və realist sənətkarlarının fikir aləmini izah və şərh edib, elmi qənaətlərini ümumiləşdirib.

Müəllif monoqrafiyanın sonunda nəticə hissəsi verib, mənbələrin, arxivlərin, kitabların, məqalə və dövrü mətbuatın siyahısını göstərib.

**Ədəbiyyatşünas-alim Teymur Əhmədov Nəriman Nərimanov haqqında 6 fundamental tədqiqat və kitabın, habelə, çoxsaylı məqalələrin müəllifidir. Alim gənclik illərindən Nəriman Nərimanov irsinə könül verib, Şıxəli Qurbanov, Mirzə İbrahimov kimi sələflərinin yoluna işıq tutub, onların Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda başladığı ənənəni həlb də qədirşünaslıqla davam etdirməkdədir.**

**Əlizadə Əsgərli**
**AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun elmi işlər üzrə direktor müavini, filologiya elmləri doktoru, professor**

Ədalət.- 2020.- 21 may. S. 5.